Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2020, **s. 70-75**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2020, **с. 70-75**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2020, **pp. 70-75**

UOT 78 (785)

Natella Bayramova
müəllim
Azərbaycan Dövlət Mədəniyyət
və İncəsənət Universiteti
AZ 1065, İnşaatçılar pr. 39
E-mail: natabayramova@yahoo.com

FORTEPİANO İFAÇILIĞININ FORMALAŞMASINDA "ÜMUMİ FORTEPİANO" FƏNNİNİN ROLU

Açar sözləri: *fortepiano məktəbi, ümumi fortepiano, multikultural dəyərlər*

Təqdim olunan məqalənin elmi yeniliyi ondan ibarətdir ki, burada ilk dəfə olaraq "Ümumi fortepiano" fənninin əhəmiyyətli rolu araşdırılaraq, bu fənnin tədrisinin tələbələrin peşəkar bir musiqiçi kimi formalaşmasında zəruriliyi üzə çıxarılır. Burada tələbələrə qarşı fərdi yanaşma üsulları, onların əcnəbi tələbələrlə ünsiyyətlərinin artırılması və bununla da multukultural dəyərlərin inkişaf etdirilməsi kimi məsələlər ilk dəfə olaraq tədqiqat obyektinə çevrilir.

Eyni zamanda burada fortepiano ifaçılığının formalaşmasında "Ümumi fortepiano" fənninin rolundan bəhs olunur. Azərbaycanda fortepiano incəsənətinin tarixi araşdırılaraq, fortepiano məktəbinin əsasını qoyan ifaçıların adları sadalanır. Eyni zamanda məqalədə Azərbaycan pianoçuların yetişdirilməsində "Fortepiano" ixtisası fənninin rolu vurğulanaraq "Ümumi fortepiano" fənninin də mühüm tərəfləri açıqlanır. Xüsusilə Azərbaycanda musiqi təhsil alan xarici tələbələrlə dostluq əlaqələrinin yaradılmasında, bu tələbələrdə musiqi fənlərinə böyük marağın oyadılmasında "Ümumi fortepiano" fənninin zəruriliyi qeyd olunur. Hətta, multikultural dəyərlərin inkişaf etdirilməsində də bir sıra musiqi fənləri ilə yanaşı "Ümumi fortepiano" fənninin danılmaz rolu sübuta yetirilir.

Н.О.Байрамова

РОЛЬ ПРЕДМЕТА «ОБЩЕЕ ФОРТЕПИАНО» В ФОРМИРОВАНИИ ФОРТЕПИАННОГО ИСПОЛНЕНИЯ

Ключевые слова: *фортепианная школа, общее фортепиано, мультикультуральные ценности*

Научная новизна статьи заключается в том, что впервые исследуется важная роль предмета «Общее фортепиано» и важность преподавания этого предмета в становлении студентов как профессиональных музыкантов. В истории фортепианного искусства в Азербайджане перечислены имена исполнителей, основавших фортепианную школу, а также разъясняются важные аспекты в этом направлении. В частности, подчеркивается важность предмета «Общего фортепиано» в установлении дружеских отношений с иностранными студентами, изучающими музыку в Азербайджане, стимулируя их интерес к музыке и развивая их многокультурные ценности. Даже в развитии мультикультурных ценностей предмет «Общее фортепиано» играет важную роль.

Bayramova N.O.

THE ROLE OF «GENERAL PIANO» IN THE FORMATION OF PIANO PERFORMANCE

Key words: *school of piano, general piano, multicultural values*

The scientific novelty of the article lies in the fact that for the first time the important role of the subject “General Piano” and the importance of teaching this subject in the formation of students as professional musicians are investigated. The history of piano art in Azerbaijan lists the names of the performers who founded the piano school, as well as explains important aspects in this direction. In particular, the importance of the subject of “General Piano” is emphasized in establishing friendly relations with foreign students studying music in Azerbaijan, stimulating their interest in music and developing their multicultural values. Even in the development of multicultural values, the subject “General Piano” plays an important role.

Azərbaycan fortepiano incəsənəti qısa bir tarixi dövr ərzində müasir bədii yaradıcılıq yüksəlişinə nail olaraq inkişaf yolu keçmişdir. Fortepiano ifaçılığ sahəsindəki irəliləyişlər ifaçılıq incəsənətindəki nailiyyətlərlə, o cümlədən müəllim və gələcək ifaçıların-tələbələrin əvəzsiz xidmətləri ilə sıx bağlı olmuşdur. Azərbaycan fortepiano məktəbinin baniləri: M.R.Brener, G.G.Şaroyev, K.K.Səfər-Əliyeva, R.İ.Atakişiyev, N.İ.Usubova, S.Ə.Quliyeva, Z.Ə.Adıgözəlzadə, F.Ş.Bədəlbəyli, O.H.Abasquliyev, T.M.Seyidov və başqalarının fortepiano sənətinin inkişafında və gələcək istedadlı ifaçıların yetişməsində böyük rolu olmuşdur.

Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük rol oynayan və

qərbdən şərqə gələn fortepiano aləti universal və ümumbəşəri bir alət kimi qəbul olunmuşdur. Orta əsrlərdə bütün şərq aləmində simli alətlərdən qanun alətində ifa etmək vacib sayılırdısa, XX əsrin əvvəllərindən dünya musiqi mədəniyyətində ifaçı və bəstəkarlar fortepiano alətinə üstünlük verməyə başladılar. Azərbaycanda ifaçıları fortepiano alətində xalq mahnıları, muğamlar, təsniflər, rənglər, rəqslər və eşitdikləri melodiyaları məharətlə ifa edirdilər. 1920-30-cu illərdə Azərbaycana xarici ölkələrdən dəvət olunan ixtisasçılardan: N.D.Nikolayev, M.L.Presman, İ.S.Aysberq milli kadrların yetişməsində böyük zəhmət sərf edir və bu zəhmətin nəticəsində ölkəmizdə fortepiano sənəti inkişaf etməklə peşəkar pianoçular nəsli yetişir. 1942-ci ildə Asəf Zeynallının ölümünün 10 illiyi ilə əlaqədar keçirilən xatirə gecəsində Azərbaycan pianoçuları avropa bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı ilə çıxış edərək böyük uğurlar qazandılar. Hətta bu ifaçılardan Simuzər Quliyeva bəstəkarın adını daşıyan təqaüdə layiq görüldü.

1944-cü ildə Tiflisdə keçirilən "Zaqafqaziya Baharı" festivalında pianoçularımız böyük ustalıq nümayiş etdirərək musiqi ictimaiyyətinin diqqətini cəlb etməyə nail oldular. Üzeyir Hacıbəylinin təşkilatçılığı ilə keçirilən bu dekadada Qara Qarayevin fortepiano əsərləri səsləndirildi. Dünya musiqi ictimaiyyəti Azərbaycanda formalaşan güclü pianoçuluq məktəbinin şahidi oldular.

1945-ci ildə isə Moskva şəhərində pianoçuların Ümumittifaq müsabiqəsi keçirilirdi. Burada da Azərbaycan ifaçıları İ.S.Bax, S.Prokofyev, F.Listin əsərlərindən ibarət zəngin repertuarla çıxış etdilər.

1947-ci ildə Azərbaycan Dövlət Filarmoniyasında dahi şairimiz Nizami Gəncəvinin 800 illiyi böyük təntənə ilə qeyd olundu. Bu konsertdə pianoçularımızdan S.Quliyeva, T.Mahmudova, Z.Əliyeva, R.Atakişiyev öz peşəkar ifalarını nümayiş etdirərək bir daha sübuta yetirdilər ki, Azərbaycanda pianoçuluq sənətini dünya ifaçılıq sənəti ilə yanaşı tutmaq mümkündür. Yenidən 1950-ci ildə Moskva şəhərində keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti dekadasında pianoçularımız maraqlı və çox mürəkkəb bir konsert proqramı ilə çıxış edirlər. Bütün Rusiya qəzetləri, radio və televiziya kanalları ifaçılarımızın peşəkar interpretasiyalarından danışdı. "İzvestiya" qəzeti yazırdı: "Bir çox xalqların ifaçılarını dinlədik, lakin Azərbaycandan gələn ifaçılar bizi heyran etdi. Bu ölkədə güclü fortepiano məktəbi yetişib formalaşmışdır."

Dünya pianizm incəsənətinin müasir səviyyəsi fortepiano texnikası sahəsində yüksək nailiyyətlərin əldə edilməsini təsdiq edir. Hazırki dövrdə pianoçular fortepiano texnikasının inanılmaz sürəti və keyfiyyətini öz interpretasiyalarında nümayiş etdirirlər. Bu ifaçıların hər biri texniki mükəmməlliyə nail olmaq üçün öz fərdi yanaşmaları sayəsində qarşıya qoyulan

məqsədləri həyata keçirərək bu istiqamətdə mürəkkəb və uzun yol keçirlər. Hər bir ifaçının interpretasiyasında öz təxəyyülünə uyğun olan pianoçu texnikası fərdidir və tarix boyu təkmilləşmiş fortepiano ifaçılıq təcrübəsinin nailiyyətləri və qanunauyğunluqlarına arxalanmadan özünəməxsus yanaşma tərzini ərsəyə gətirmək mümkün deyil.

Ölkəmizdə musiqi mədəniyyətinin yüksək templi inkişafı musiqi tədris və təhsil sisteminin daima təkmilləşməsini, peşəkar kadrların hazırlanmasını tələb edir. Bu proses əsl professional, yüksək səviyyəli ixtisaslı musiqiçilərin yetişməsində böyük rol oynayan fortepiano kursunu da əhatə edir.

İstedadlı ifaçıların yetişməsində "Fortepiano" ixtisası ilə yanaşı "Ümumi fortepiano" dərslərinin də mühüm rolu danılmazdır. "Ümumi fortepiano" sinfində məşğul olan tələbələr klassik və müasir musiqinin ən yaxşı nümunələri ilə tanış olaraq, öz dünyagörüşlərini inkişaf etdirib ifaçılıq bacarığına yiyələnirlər.

"Ümumi fortepiano" fənni üzrə tədris proqramı ixtisas "Fortepiano" fənninə nisbətən sadə və kiçik formalı əsərlər üzərində qurulsa da müəllim və tələbələrin qarşısında çətin vəzifələr durur. Xüsusilə də xarici ölkələrdən, əsasən qardaş Türkiyədən təşrif buyuran tələbələrlə iş prosesinin düzgün şəkildə qurulması müəllimlərdən peşəkarlıq, səbir və təmkinli olmağı tələb edir. Nəzərə alsaq ki, bu tələbələrdən çoxunun musiqi bazası yoxdur, bu halda fənnin tədrisi ilkin mərhələlərdən başlanmalıdır.

Qeyd etmək lazımdır ki, son illərdə xalqımızın müxtəlif xalqlarla əməkdaşlığı nəticəsində milli kulturalizm inkişaf edir, tələbələrimiz xarici ölkələrdə təhsillərini davam etdirərək, digər ölkələrdən Azərbaycana oxumağa gələn tələbələri qəbul edir. Beləliklə də xalqlar arasında kulturalizm bir daha yüksək səviyyəyə çatır ki, bunun da sülhün qorunmasında böyük rolu danılmazdır. Xarici ölkələrdən Azərbaycana musiqi təhsili almağa gələn tələbələrin hazırlıq səviyyəsinin və ifaçılıq qabiliyyətinin müəyyənləşdirilməsi müəllimin qarşısında duran ən mühüm vəzifələrdəndir. Tələbələrə ilk növbədə fortepiano texnikasının əsas elementlərini mənimsətməklə, nəzəriyyə və notu üzündən oxumağı öyrətmək, onların maraq dairəsini musiqi vasitələri ilə inkişaf etdirib, əsas musiqi vərdişlərini və daxili səsduyma qabiliyyətini formalaşdırmaq lazımdır. Seçilən əsərlər onların ruhuna, arzu və istəyinə uyğun olmalı və tələbədə musiqiyə qarşı dərin məhəbbət hissi oyanmalıdır. Musiqi duyumu zəif olan tələbələrlə "Ümumi fortepiano" fənnini ansambl məşğələləri şəklində keçmək və bu tələbələri səhnə çıxışlarına cəlb etmək daha məqsədəuyğundur. Uzun illik təcrübələrdən məlumdur ki, tələbələrin çoxu səhnədə çılxış etməkdən zövq alır və səhnə çıxışı onları ruhlandıraraq, nəticədə tələbələrdə musiqiyə böyük sevgi yaranır. Klassik musiqi bütün dünya

xalqlarına məxsus olduğu üçün bu əsərlər tələbələrdə humanistlik, gözəllik, xeyirxahlıq və həyatsevərlik hisləri oyadır. Nəticədə tələbələrdə yüksək insani keyfiyyətlər formalaşaraq, tələbələrin intellektual səviyyəsini yüksəldir. Hətta, ifaçılıq qabiliyyəti zəif olan tələbələri də səhnəyə cəlb etməklə onu ruhlandırmaq, onda böyük sevgi və maraq hissi oyatmaq mümkündür. Tələbələrin ifaçılıq texnikasının inkişafında bir sıra problemlər mövcuddur ki, bunlar ilk növbədə barmaq apparatının dəqiqliyi ilə əlaqədardır. Mükəmməl applikatura texnikasına malik olmaq üçün ilk növbədə tələbənin alətin klaviaturası ilə tanışlığı və həmin alətə nə dərəcədə bələd olmasından asılıdır. Hər bir qarşıya qoyulan texniki məqsəd müəyyən tembr-kolorist məqsədin həyata keçirilməsini təxmin edir. İş prosesində tələbələrə bütün artıq hərəkətlərdən çəkinməyi tövsiyə edilir, əl hərəkətlərinin düşünülməsi, ifa prosesində yaranan əzələ gərginliyinə qarşı durmaq bacarığına yiyələnmək kimi məsələləri qarşıya qoyulur. Çünki əzələ yorğunluğu və fiziki gərginlik yaradıcı prosesə və hislərin aydın ifadəsinə, o cümlədən musiqi təfəkkürünün daxili işinə mane olur. Fortepiano ifaçılığının inkişafında ritmik cəhətdən dəqiq ifa mühüm əhəmiyyət kəsb edir. Əgər tələbə əsəri ağır tempdə qeyri-düzgün ifa edirsə, cəld tempdə əsərin dəqiq ritmik ifası mümkün deyil. Bu səbəbdən də dərs peosesində tempin ağırlaşdırılması, epizodun ritmik cəhətdən xırdalanaraq ifa olunması və dəqiq ritmik ifa bacarığının artırılması tövsiyə olunur. Əsəri ağır tempdə öyrənən tələbə konkret səs ifadəsinə müvafiq düzgün, əlverişli ifa hərəkətləri taparaq məhz səs vasitəsilə əsərin xarakterini təcəssüm etdirir. Ağır tempdən tədricən cəld tempə keçid seçilən musiqi əsərinin əsaslı surətdə öyrənilməsinə və səliqəli, nöqsansız, keyfiyyətli ifaya şərait yaradır. Ağır və cəld templərin növbələşdirilməsi ilə ifa sürətinin tədricən artırılması iş prosesinin mühüm prinsiplərindəndir. Xarici ölkələrdən təhsil almağa gələn tələbələrin baza musiqi təhsili olmadığı üçün sadalanan amillərə xüsusi diqqət yetirilməlidir. Tələbələrlə mütəmadi şəkildə konsertlər təşkil etməklə onların arasında dostluq və səmimi ünsiyyəti inkişaf etdirməyə nail olmaq mümkündür.

Bu gün milli mədəniyyəti qoruyub gələcək nəsillərə çatdırmaq vəzifəsi kifayət qədər aktualdır. Bununla bağlı musiqiçi ifaçıların yetişməsində sırf müxaniki və birtərəfli yanaşma inkişafı real təhlükə yaradır. Məhz bu səbəblərdən də musiqi ifaçılıq sənətinin müasir təcrübə və nəzəriyyəsində ifaçılıq prosesinin bədii və texniki komponentlərinin qarşılıqlı əlaqəsi probleminin aktuallığı xüsusi əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, Ümummilli Liderimiz Heydər Əliyev respublikamıza rəhbərliyi dövründə multukultural dəyərlərin inkişafına xüsusi diqqət ayırırdı. Multukultural dəyərlərin inkişaf etdirilməsi və xarici ölkələrlə mədəni əlaqələrin möhkəmləndirilməsi sahəsində irəli bir sıra addımlar atılır.

Respublikamızda təhsilə, musiqiyə, incəsənətə günbəgün inkişaf etdirilir. İfaçıların yaradıcı potensialının inkişafı və tərbiyə olunması müasir cəmiyyətimizin ümdə problemlərindəndir.

Məqalədə **ilk dəfə** multikultural dəyərlərin inkişaf etdirilməsində bir sıra musiqi fənləri ilə yanaşı “Ümumi fortepiano” fənninin danılmaz rolu sübuta yetirilir.

ƏDƏBİYYAT

1. Seyidov T. "XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: pedaqogika, ifaçılıq və bəstəkarlıq yaradıcılığı". Bakı, 2016
2. Səfərova Z. "Azərbaycan musiqi tarixi". Bakı, 2017
3. Allahverdiyev C. Fortepiano üçün seçilmiş əsərlərin ifaçılıq xüsusiyyətləri. Dərs vəsaiti. Bakı, 2014
4. Abasquliyev O. Fortepiano metodikasından mühazirə kursu , Bakı, 2014

Məqalənin redaksiyaya daxil olma tarixi: 23.02.2020
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.06.2020
Məqalənin çapa qəbul olunma tarixi: 18.06.2020
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Zemfira Abdullayeva
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.